**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№ 008/259**

**Bakı şəhəri** **"21" fevral 2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2023-cü il 7-20 fevral tarixli rəsmi məlumatlarına əsasən, İspaniya Krallığının Qalisiya (Galicia) muxtar icmasında süngərvari ensefalopatiya, Fələstin Dövlətinin Beytləhm (Bethlehem) və İraq Respublikasının Qədisiyyə (Al-Qadisiyah), Kərkük (Kirkuk), Səlahəddin (Saladin), Kərbəla (Karbala), Nəcəf (Al-Najaf) əyalətlərində dabaq, Rusiya Federasiyasının Zabaykal diyarının Çita (Chita) rayonunda manqo, İspaniya Krallığının Kataloniya (Cataluna) muxtar icmasında, Amerika Birləşmiş Ştatlarının Missisipi (Mississippi) ştatında, Bolqarıstan Respublikasının Sofiya (Sofia) vilayətində, Şotlandiyanın Damfris-Qalloyey (Dumfries and Galloway), Şərqi Ayrşir (East Ayrshire), Fafe (Fife) inzibati ərazi vahidlərində, Ekvador Respublikasının Bolivar (Bolivar), Piçinça (Pichincha), Tunquraua (Tungurahua) əyalətlərində isə yüksək patogen quş qripi (YPQQ) xəstəliyi qeydə alınmışdır.

Bununla əlaqədar, respublika ərazisinin qeyd olunan yoluxucu xəstəliklərdən qorunması üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən zəruri tədbirlərin görülməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin İspaniya Krallığının Qalisiya muxtar icmasında süngərvari ensefalopatiya, Fələstin Dövlətinin Beytləhm və İraq Respublikasının Qədisiyyə, Kərkük, Səlahəddin, Kərbəla, Nəcəf əyalətlərində dabaq, Rusiya Federasiyasının Zabaykal diyarının Çita rayonunda manqo, İspaniya Krallığının Kataloniya muxtar icmasında, Amerika Birləşmiş Ştatlarının Missisipi ştatında, Bolqarıstan Respublikasının Sofiya vilayətində, Şotlandiyanın Damfris-Qalloyey, Şərqi Ayrşir, Fafe inzibati ərazi vahidlərində, Ekvador Respublikasının Bolivar, Piçinça, Tunquraua əyalətlərində isə YPQQ xəstəliyinin qeydə alınması barədə məlumatları nəzərə alınsın.

**2.** İspaniya Krallığının Qalisiya muxtar icmasından bütün növ diri iribuynuzlu kənd təsərrüfatı heyvanları və onlara aid məhsulların, o cümlədən genetik materialların, tərkibinə heyvan mənşəli zülal və sümük unu əlavə olunan yemlərin idxalına müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**3.** Fələstin Dövlətinin Beytləhm və İraq Respublikasının Qədisiyyə, Kərkük, Səlahəddin, Kərbəla, Nəcəf əyalətlərindən diri heyvanların, heyvan mənşəli məhsulların və xammalın idxalına, həmçinin tranzit daşınmasına müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**4.** Rusiya Federasiyasının Zabaykal diyarının Çita rayonundan diri atların və onlara aid genetik materialların idxalına və ölkə ərazisindən tranzit daşınmasına müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**5.** İspaniya Krallığının Kataloniya muxtar icmasından, Amerika Birləşmiş Ştatlarının Missisipi ştatından, Bolqarıstan Respublikasının Sofiya vilayətindən, Şotlandiyanın Damfris-Qalloyey, Şərqi Ayrşir, Fafe inzibati ərazi vahidlərindən, Ekvador Respublikasının Bolivar, Piçinça, Tunquraua əyalətlərindən ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, zonalaşma prinsipi nəzərə alınmaqla, diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının (ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 10.4.23-cü və 10.4.25-ci maddələrinə uyğun olaraq, quş qripi viruslarının məhv edilməsini təmin edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına və ölkə ərazisindən tranzit daşınmasına müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**6.** Epizootik risk amillərinin mövcudluğu nəzərə alınaraq, İspaniya Krallığının Kataloniya muxtar icmasının, Amerika Birləşmiş Ştatlarının Missisipi ştatının, Bolqarıstan Respublikasının Sofiya vilayətinin, Şotlandiyanın Damfris-Qalloyey, Şərqi Ayrşir, Fafe inzibati ərazi vahidlərinin, Ekvador Respublikasının Bolivar, Piçinça, Tunquraua əyalətlərinin sağlam ərazilərindən ölkəmizə idxal edilən adıçəkilən məhsullar yüksək risk qrupuna aid edilsin və daxil olan yükün hər partiyası laboratoriya müayinəsinə cəlb olunsun.

**7.** Xəstəliyin aşkarlandığı tarixə kimi qeyd olunan ərazilərdən ixracatçı ölkənin səlahiyyətli qurumunun nəzarəti altında ölkəmizə daşınmaq üçün yüklənmiş müvafiq məhsulların idxalı laboratoriya müayinəsinə cəlb olunmaqla həyata keçirilsin.

**8.** Bu qərarın 2-ci, 3-cü, 4-cü və 5-ci bəndlərinin icrasının təmin edilməsi üçün, habelə İspaniya Krallığının Qalisiya, Kataloniya muxtar icmalarından, Fələstin Dövlətinin Beytləhm və İraq Respublikasının Qədisiyyə, Kərkük, Səlahəddin, Kərbəla, Nəcəf əyalətlərindən, Rusiya Federasiyasının Zabaykal diyarının Çita rayonundan, Amerika Birləşmiş Ştatlarının Missisipi ştatından, Bolqarıstan Respublikasının Sofiya vilayətindən, Şotlandiyanın Damfris-Qalloyey, Şərqi Ayrşir, Fafe inzibati ərazi vahidlərindən, Ekvador Respublikasının Bolivar, Piçinça, Tunquraua əyalətlərindən gələn, eyni zamanda bu inzibati ərazi vahidlərindən tranzitlə keçib respublikamıza daxil olan nəqliyyat vasitələrinin gömrük-sərhəd buraxılış məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

**9.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**10.** Bu qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti dövlət orqanlarına göndərilməsi təmin edilsin.

**11.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**